Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) və Azərbaycan Müəllimlər İnstitutunun tələbə gənclər təşkilatının birgə keçirdiyi təqdimatda italiyalı mütəxəssis, mərasimlər komandasının kastinq meneceri Nikoletta Korradin "Bakı-2015" Avropa Oyunlarının açılış və bağlanış mərasimlərində iştirak qaydaları ilə bağlı geniş məlumat verib.

Bildirilib ki, baku2015.com səhifəsinə daxil olaraq "Bizə qoşulun" menyusunu seçməklə ərizə formasını dolduraraq kastinq sessiyasını sifariş etmək mümkündür. N.Korradin qeyd edib ki, kastinqlər 2014-cü ilin noyabr-dekabr aylarında keçiriləcək, məşqlər isə 2015-ci ilin martında başlayacaq. Vurğulanıb ki, arzusu, enerjisi, komanda ruhu olan hər kəs mərasim iştirakçısı ola bilər.

İştirak etmək arzusunda olan tələbələr qeydiyyat vərəqini doldurublar.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.